# Peşəkar, modern, güclü ordu



***"EFES-2024" hərbi təlimləri. Türkiyə Silahlı Qüvvələrinin planına əsasən keçirilən Birləşmiş Müştərək Döyüş Atışı Sahə Təlimi başa çatıb. Dünyanın 49 ölkəsindən 11 mindən çox hərbçinin iştirak etdiyi təlimlərə Azərbaycan Ordusunun hərbçiləri də qatılıb. Hərbi qulluqçularımız digər iştirakçılarla birgə qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər. Qeyd edək ki, bu cür hərbi təlimlər Silahlı Qüvvələrimizin peşəkarlığının artırılmasında, Ordumuzun möhkəmlənməsində mühüm rol oynayır.***



Ordu quruculuğu uzun vaxt aparan bir prosesdir və özünəməxsus obyektiv qanunauyğunluqları var. Bütün ölkələrdə ordu quruculuğu üçün ümumi cəhətlər mövcud olsa da, bu proses hər ölkəyə xas olan xarakterik xüsusiyyətlərlə müşayiət olunur. Azərbaycanın ordu quruculuğu siyasətində milli hiss, milli birlik, milli iftixar, vətənə, torpağa bağlılıq duyğusu əsas prinsiplərdən biridir. Belə ki, hər bir zabit və əsgər özünün tarixini, keçmişini, kökünü, soyunu bilməli, onlara qırılmaz tellərlə bağlı olmalıdır. Prezident İlham Əliyev bu ilin yanvar ayında yerli televiziya kanallarına müsahibəsində deyib: "... Birmənalı sizə deyirəm. Çünki bu zəfəri şərtləndirən xalqın ruhu idi və əsgəri qabağa göndərən də xalqın ruhu idi, onun tərbiyəsi idi. Nə qədər silahın olsa, nə qədər ordun peşəkar təlimlərdə olsa, əgər ruh yoxdursa, heç bir təpəni də sən götürə bilməzsən. Ölümə gedirdilər, siz yaxşı bilirsiniz".

Azərbaycan Demokratik Respublikasının 23 aylıq hakimiyyəti dövründə silahlı qüvvələr yaradılarkən də bu milli xüsusiyyətlər nəzərə alınmışdı, yenidən müstəqilliyə qovuşduqdan, ulu öndər 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra da Azərbaycan ordusu bu ruhda formalaşdırıldı. 1994-cü ilin mayında atəşkəs əldə olunduqdan sonra ölkəmizdə nizamlı, müasir səviyyəli ordunun qurulması prosesinə başlanıldı. Prezident İlham Əliyevin hakimiyyəti dövründə isə bu proses tamamilə yeni mərhələyə qədəm qoydu. Ulu öndərin ordu quruculuğu siyasətini uğurla davam və inkişaf etdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı sayəsində hərbçilərin peşəkarlığının artırılması, şəxsi heyətin döyüş ruhunun və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, Silahlı Qüvvələrimizin ən müasir silah və texnika ilə təchizatı daim ön planda saxlanıldı. Məhz bu diqqət və qayğının sayəsində Azərbaycan Silahlı Qüvvələri qısa müddətdə regionun ən güclü ordusuna çevrildi.

Dövlət başçısının Sərəncamı ilə yaradılan hərbi sənaye kompleksi də öz bəhrəsini verir. Belə ki, ölkədə mindən çox hərbi təyinatlı məhsul istehsal edilir və dünyanın aparıcı beynəlxalq sərgilərində nümayiş olunur. Azərbaycanın müdafiə təyinatlı məhsullarının xarici bazarlara çıxarılmasına xüsusi önəm verən Müdafiə Sənayesi Nazirliyi hərbi-texniki əməkdaşlığın genişləndirilməsi, qarşılıqlı faydalı əlaqələrin inkişafı və yerli istehsalın ən yeni nailiyyətlərinin nümayiş etdirilməsi məqsədilə müxtəlif ölkələrdə keçirilən beynəlxalq müdafiə, silah və hərbi xüsusi texnika sərgilərində mütəmadi iştirak edir. Son illərdə İstanbulda keçirilmiş "İDEF-2021", "SAHA EXPO-2022", Əbu-Dabidə "İDEX-2021", Minskdə "MİLEX-2021", Belqradda "Partner-2021", Moskvada "ARMİYA-2021", Dohada "DİMDEX-2022", Kuala-Lumpurda "DSA-2022", Parisdə "Euronaval-2022", İordaniyada "SOFEX-2022", Kəraçidə "İDEAS-2022" və digər şəhərlərdə təşkil olunan sərgilərdə Azərbaycan Müdafiə Sənayesi Nazirliyi yüksək səviyyədə təmsil edilib.

2014-cü ildən etibarən iki ildən bir Azərbaycanda da "ADEX" Beynəlxalq Müdafiə Sərgisi təşkil olunur. 2022-ci ilin sentyabrında Bakıda IV "ADEX" və XIII Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə "Securex Caspian" sərgiləri keçirilib və bu nüfuzlu sərgilərə İtaliya, Niderland, Çin, Bolqarıstan, Fransa və digər ölkələrin müdafiə qurumlarının aparıcı şirkətləri də qatılıb. Türkiyə, Pakistan, İsrail, Belarus, İran və Rusiya daxil olmaqla 10-dan artıq ölkə isə öz milli stendləri ilə təmsil olunub.

Ölkəmiz beynəlxalq hərbi əlaqələrini xarici dövlətlərin hərbi qurumları və beynəlxalq təşkilatlarla qarşılıqlı maraqlar əsasında reallaşdırır. Qonşu Türkiyə, Gürcüstan, Rusiya ilə yanaşı, Ukrayna, Belarus, ABŞ, Böyük Britaniya, Pakistan, İsrail və digər ölkələrlə hərbi, hərbi-texniki və hərbi-siyasi əməkdaşlıq edir. Türkiyə, Rusiya, Pakistan, İsrail dövlətləri, NATO bloku ilə əməkdaşlıq xüsusi çəkiyə malikdir.

2021-ci il iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə Şuşa şəhərində imzaladıqları Şuşa Bəyannaməsi ölkəmizin hərbi qüdrətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Həmin il ərzində hərbçilərimizin daha müasir döyüş taktikalarına yiyələnməsi və bacarıqlarının inkişaf etdirilməsi üçün Azərbaycan-Türkiyə-Pakistan "Üç qardaş-2021" adlı beynəlxalq və çoxsaylı ikitərəfli təlimlər baş tutub.

Komando birliklərinin yaradılması da mühüm hadisələrdən biridir. 2022-ci ilin əvvəllərində Qarsda Azərbaycan və Türkiyə hərbçilərinin növbəti birgə təlimləri baş tutdu. Bakıda keçirilən "TurAz Qartalı-2022" birgə taktiki-uçuş təlimləri də uğurla həyata keçirilib. Türkiyədə Azərbaycan, Gürcüstan və qardaş ölkənin hərbi qulluqçularının iştirakı ilə keçirilən "Etenity-2022" kompüter dəstəkli komando qərargah təliminə hərbi qulluqçuların və aidiyyəti dövlət qurumlarının nümayəndələri cəlb olunub. Təlimdə strateji əhəmiyyətli, regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqlar icra edilib.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman hərbçiləri "Qış-2023" hərbi təlimində də iştirak ediblər.

Təbii ki, bütün bunlar Azərbaycan ordusunun peşəkarlığının artırılmasına xidmət edir. Ordumuzun potensialının gücləndirilməsi isə prioritet olaraq qalır...

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**